**UOT 388:801.6; 398:82.0; 801.8**
**https://doi.org/10.59849/2218-4783.2025.1.259**

**AYTƏKİN ZEYNALOVA**

# NAXÇIVAN AŞIQ MÜHİTİ: AĞ AŞIQ KOSACANLI

*Aşıq ədəbiyyatı xalqın milli dəyərlərini özündə ehtiva edən, saxlayan, gələcək nəsillərə çatmasına kömək edən ədəbiyyat qollarından biridir. Aşıqlar getdikləri toy mərasimlərində müxtəlif dastanları, toy mahnılarını ifa edirlər. Bu ifalar elin adət-ənənəsini gələcək nəsillərə ötürür. Məhz aşıq yaradıcılığı sayəsində biz keçmiş dövrlərdəki adət-ənənə, cəmiyyət haqqında məlumatları əldə edə bilirik. Bu baxımdan, aşıqlar xalq ədəbiyyatında ən mühüm şəxslər hesab olunur. Naxçıvan aşıq ənənəsinin görkəmli nümayəndəsi Ağ Aşıq Allahverdi də bu ənənənin inkişafında əvəzolunmaz xidmətləri olan aşıqlardan biridir. Allahverdi öz yaradıcılığında insani keyfiyyətləri, sevgi tərənnümünü, eşq iztirabını, vətən həsrətini, yurd gözəlliklərini, qürbətçi olmağın çətinliklərini ifadə etmişdir.*

*Məqalədə aşığın "Ağ Aşıq və Süsənbər" dastanı, eləcə də aşığın şeir yaradıcılığı təhlil olunmuşdur. O cümlədən, aşığın həyatı haqqında məlumat da verilmişdir.*

**Açar sözlər:** *Ağ Aşıq Allahverdi, Naxçıvan aşıqları, dastan, aşıq yaradıcılığı, ənənə, milli dəyərlər, xalq ədəbiyyatı.*

**Giriş.** "Aşıq ədəbiyyatı bütün başqa keyfiyyətləri ilə yanaşı, birinci növbədə milli ədəbiyyat hadisəsidir. Öz metrik və melopoetik göstəricilərinə görə o nə şifahi xalq ədəbiyyatına, nə də yazılı divan ədəbiyyatına bənzəmir. O, türk etnik-mədəni sisteminin birbaşa özünəməxsus olan, onun tarixi-genetik təbiətindən doğan xüsusi bir ədəbiyyat tipidir" [1, s. 6]. Aşıq olmaq xüsusi bacarıq tələb edir. Bu bacarığa sahib olan şəxslər yaratdıqları şeirlərlə, dastanlarla xalqın milli dəyərlərini yaşadırlar.

Kosacanlı Ağ Aşıq Allahverdi ustad aşıqlardan biri olmuşdur. Onun şagirdi Aşıq Alı da aşıqlıq ənənəsinə aid nümunələr yaratmış, məşhur aşıqlardan biri olmuşdur.

Ağ Aşıq yaradıcılığında əhatə etdiyi mövzular aşıqlıq ənənəsi qaydalarına uyğun tərtib edilmişdir. O, bayatı, qoşma, təcnis, ustadnamə, deyişmə kimi aşıqlıq ənənəsi janrlarından məharətlə istifadə etmişdir. Aşığın özünün tərtib etdiyi, öz həyatından bəhs edən "Ağ Aşıq və Süsənbər" dastanı özündə həm bədbin, həm xoşbəxt anları birləşdirir. Aşıq bu dastanda sevgi hekayəsini, yurdundan didərgin düşməsini, ailəsindən ayrı qalmasını şeirləri ilə ifadə etmiş, oxucuya çatdırmışdır.

**Kosacanlı Ağ Aşıq Allahverdinin həyatı və "Ağ Aşıq və Süsənbər" dastanı.** Ağ Aşıq Allahverdinin harada anadan olması haqqında müxtəlif fikirlər mövcuddur. Alim Yusif Səfərov "Naxçıvan aşıqları və el şairləri" adlı kitabında aşığın Naxçıvanda anadan olduğu fikirlərini bu sözlərlə ifadə etmişdir: "Kosacanlı Ağ Aşıq Allahverdi təxminən 1754-cü ildə Şərur mahalının Kosacan kəndində məşhur şeyx nəslindən olmuş Qara Osmanoğlunun ailəsində anadan olmuşdur. Deyilənlərə görə, Qara Osmanoğlunun atası Cənubi Azərbaycanın Mərənd bölgəsindən Kosacan kəndinə gəlmişdir" [5, s. 24]. Alim Əsgər Qədimov isə müxtəlif mənbələri araşdırmış və nəticədə qənaətə gəldiyi faktları oxuculara çatdırmışdır: "Aşıq Alının ustadı kimi tanınan Aşıq Allahverdi haqqında "Görkəmli el sənətkarı Aşıq Alının anadan olmasının 180 illiyini təntənə ilə qeyd etmək haqqında" verilmiş qərardan sonra Hüseyn Arifin, Nazilə Məmmədovanın və folklorşünas Mürsəl Həkimovun məqalələri dərc olundu. Bu məqalələrin bir qismində Aşıq Allahverdi haqqında dolaşıq fikirlər irəli sürülmüş, Göyçəli Aşıq Allahverdi ilə Şərurun Kosacan kəndindən olan Aşıq Allahverdi qarışdırılmışdır. Halbuki bunlar eyni şəxslərdir. Buna hər iki aşığın adının Allahverdi və təxəllüsünün "Ağ Aşıq olması səbəb olmuşdur" [3, s. 44]. Allahverdinin təxəllüsünün "Ağ Aşıq" olması onun üz rənginin çox ağ olması ilə bağlıdır. Bu təxəllüslə bağlı Təranə Vahid öz məqaləsində belə qeyd edir: "Folklorşünas alimlərin tədqiqatlarına görə, Ağ Aşığın babası Şeyx Osman sufi-dərviş təkəsinin mürşidi olmuş, müridləri ilə quzeydən – çox güman ki, Qazax-Şəmşəddil, yaxud da həmin bölgəyə aid Qaraqoyunludan köçüb Şərurda, Arazın qırağındakı Kosacan kəndində məskunlaşmışdı. Şeyx

Osman və onun oğlu Qara Osmanoğlu aşıq olmasalar da, gözəl saz çalıb oxuyarmışlar. Ancaq onların aşıqlığı təkkə mərasimi çevrəsindən kənara çıxmazmış” [6].

Aşığa öz atası ustadlıq etmişdir. Aşıq özü isə Aşıq Alının ustadı olmuş, ona aşıqlığın bütün sirlərini öyrətmişdir. Ustadın bir çox şeirləri, digər aşıqlarla deyişmələri, həmçinin “Ağ Aşıq-Süsənbər” dastanı dövrümüzə gəlib çatmış, öyrənilmişdir. Alim Yusif Səfərov aşığın vəfatı ilə bağlı bu məlumatı qeyd edir: “Kosacanlı Ağ Aşıq 1860-cı ildə Göyçə mahalının Şəfəq kəndində (indiki Ermənistan ərazisində) dünyasını dəyişmişdir”[5, s. 24].

Aşıq “Ağ Aşıq və Süsənbər” adlı dastanında öz həyatını, Süsənbərə necə aşiq olduğunu təsvir edir. Dastan üç ustadnamə ilə başlayır. Klassik Azərbaycan dastanlarının bir çoxunda olduğu kimi bu dastanda da yuxu motivindən istifadə görünür. Qara Osman oğlu Arazdöyən yuxusunda atasını gördükdən sonra onun dediklərini edir və iki övladı olur. Birinin adını Allahverdi, digərini isə Ümmülbanu qoyur və beləliklə, Allahverdinin hekayəsi başlayır. O, böyüyür, aşıqlıq sənətini öyrənir və toylarda aşıqlıq edir. Bir gün Telli Cəfərin dəvəti ilə toya gedir və onun qızı Süsənbərə aşiq olur. Süsənbər aşığın oxuduğu bayatı və qoşmalardan onun sevgisindən xəbər tutur. Toydan sonra Kosacana qayıdan Ağ Aşıq sevgisini atasına danışır. Atası el ağsaqqalları ilə birlikdə Süsənbərə elçi gedir və iki sevgilinin toyu baş tutur.

“Dastan üzərində aparılan müşahidə göstərir ki, dastan, əsasən, Kosacanlı Ağ Aşıqla bağlı hadisələr və özünün şeirləri əsasında yaradılmışdır. Dastanı tərcümeyi-hal xarakterli dastan adlandırmaq olar. Dastanın Kosacanlı Ağ Aşıq Allahverdi tərəfindən yaradıldığına şübhə yoxdur” [4, s. 99]. Dastanda aşıq bəzən bədbin notlara toxunur, şeirlərində onun məyusluğu öz əksini tapır. Bu mövzular daha çox aşığın öz yurd-yuvasından ayrı düşməsi ilə bağlıdır. Dastanda Sərdar Hüseyn xanla bağlı hadisələr də öz əksini tapmışdır. Sərdar Hüseyn xan sağalmaz dərdə düşür və təbiblər bu xəstəlikdən qurtulmağın tək çarəsi olaraq Ağ Aşığın qanını məlhəm bilirlər. Bu hadisəni eşidən aşığın bacısı Ümmülbanu ilə arasında qəmli şeirlər söylənilir. Ağ Aşıq Sərdar Hüseyn xanın hüzuruna gedərkən bu şeiri söyləyir:

Zəhmət ilə bağça saldım, becərdim,
Müştaq oldu qəmxarına ha dərdim.
Bülbültək gül üçün candan keçərdim,
Müştaq oldu qəmxarına ha dərdim. [3, s. 55]

Bu şeirlə aşıq öz dərdini övladları, bacısı və xatunu ilə bölüşür. Dastanda, həmçinin, Naxçıvan və Sulduzla bağlı faktları qeyd etmiş, Göyçədə məskunlaşdığını bildirmişdir:

Dağ çəkildi Naxçıvana, Sulduza,
Duz nədir ki, həsrət qala el duza.
Axund, molla, seyid dönüb quduza
Elin sərvətini hara çəkirlər?

Sığındım Göyçəyə, bu mahalda mən,
Şükür deməmiş, düşdüm zavala mən [4, s. 102].

Şeir təsdiq edir ki, Naxçıvan əsarət altında qalmış, aşıq öz yurdundan didərgin düşməyə məcbur olmuşdur. Onun vətən həsrəti, qürbətçi olmağı şeirlərində öz əksini tapmışdır.

“Ağ Aşıq və Süsənbər” dastanın aşığın həyat yolunun öyrənilməsi ilə bağlı çox böyük əhəmiyyət daşıyır. Dastanda ozanın həqiqi həyat yolu öz dilindən əks olunmuşdur. Dastan Azərbaycan dastançılıq ənənəsinin gözəl nümunələrindən biridir.

**Ağ Aşıq Allahverdinin şeir yaradıcılığı.** Ağ Aşıq yaradıcılığı özünəməxsus xüsusiyyətləri ilə seçilir. Aşığın şeirləri aşıq yaradıcılığı xüsusiyyətlərini özündə əks etdirir. Aşığın bayatı, gəraylı, qoşma, ustadnamə, təcnis və deyişmələri vardır. Bu şeirlərdə vətən həsrəti, yurd gözəllikləri, sevgiliyə məhəbbət, igidlik, mərdlik kimi mövzular işlənmişdir. Aşığın bayatılarından bir neçəsinə nəzər yetirək:

Aşıq deyər nə qaldı,
Bu nə qayda nə qaldı?
Mərd-iyiddən şan-şöhrət,
Bəs namərddən nə qaldı? [5, s. 26].

Bu bayatıda aşıq mərd insanla namərd insan arasındakı keyfiyyətləri təhlil etmişdir. Aşığa görə mərd insan hər zaman digərlərindən öndə olur, o, hər bir işi cəsarətlə yerinə yetirir və alqışa layiqdir. Namərd insana isə heç bir xüsusi diqqət ayrılmayacaqdır. Aşıq digər bir bayatısında isə vətən həsrətini, bu həsrətin onda buraxdığı dərin izləri ifadə etmişdir:

Əzizinəm, ələndi,
Günüm-gündən ələndi,
Vətən deyib qocaldım
Ömür-günüm ələndi [5, s. 25].

Ağ Aşıq ustadnamələrində, əsasən, nadanların haqqındakı mənfi fikirlərini ifadə etmişdir. "Nə bilər?", "Çətindi" kimi ustadnamələr bu qəbildəndir və bu ustadnamələrin kökündə atalar sözləri dayanır:

Axtarsan da yerin yeddi qatını,
Hər kəs göstərəcək öz isbatını,
Namərdə bağışla köhlən atını,
Ya yolunda sən zəhər iç, nə bilər? [2, s. 116]

"Nə bilər?" adlı bu ustadnamədə bəşər övladına nə qədər yaxşılıq edirsən et, əgər o insan nadandırsa, etdiklərini qiymətləndirmirsə, demək ki, o insan üçün heç nə etmək lazım deyil prinsipi ilə yanaşmışdır. Həmin ustadnamədə bir damlanın qiymətini bilməyənlər üçün bütün dəryanı hədiyyə etməyin də bir mənası olmadığını göstərmişdir. Kosacanlının yaradıcılığında naxələflik, nadanlıq kimi mənfi sifətlərin tənqidi prinsipi Dədə Ələsgərin, eləcə də digər ustad-yaradıcı aşıqların yaradıcılığından qaynaqlanır.

Ozan aşıq ədəbiyyatı qaydalarına uyğun olaraq möhürbənddə öz adını qeyd edir. "Çətindi" adlı ustadnaməyə diqqət edək:

Allahverdi, işin yox fitnə-felinən,
İnsanı qarşıla şirin dilinən,
Ayrılma yoldaşnan, bir ol elinən,
El olmasa, tək ucalmaq çətindi [2, s. 117].

Bu şeirdə isə aşıq özünə nəsihət ünvanlayır, xalqından, elindən uzaqlaşmağı özünə rəva bilmir. Ozan pisdən, pis əməlli insanlardan uzaq duraraq mənəvi dünyasını zənginləşdirir. O, bilir ki, eldən, dostdan uzaq olmaq, tək qalmaq insanı uçuruma aparır, tək insan zirvələrə qalxsa belə, bir gün yıxılmağa düçar olur.

Aşıq qoşmalarında daha çox sevgi-məhəbbət mövzularından istifadə etmişdir. Əsasən, nakam eşq, sevgiliyə qovuşmamaq dərdi, eşq odu bu şeirlərdə üstünlük təşkil edir. "Məni" adlı qoşması bu mənada seçilir. Qoşmada sevdiyi yarının dərdi bir od tək aşığı yandırmış, qürbətdə düşdüyü bu eşq onu dərdlərə düçar etmişdir:

Ağ Aşıq həsrətdi biçarə yara,
Görəsən olarmı dərdimə çara?
Müddətdir düşmüşəm qürbət diyara,
Fələk saldı qərib ellərə məni [5, s. 29]

Aşığın bəzi şeirləri bədbin ruhda yazılmışdır. Belə şeirlərdən biri də "Bilmirəm" adlı qoşmasıdır. Qoşmada aşıq dərdinin çox olmasından gileylənir. Məcazi mənada ifadələrdən istifadə edən aşıq "zəhrimara döndü ağzımda balım" deyərək çəkdiyi əziyyətlərdən rahat yaşaya bilmədiyini söyləmişdir. Qolu-qanadı sınan aşıq əlini dünyəvi ləzzətlərdən üzür:

Qocalıq üz verdi, yatdı iqbalım,
Zəhrimara döndü ağzımda balım,
İmran dilli sazı hicrana çalım,
Tale üz döndərib bəlkə bilmirəm. [5, s. 30]

Aşığın "Ayə məndədi" təcnisində isə "Sevdiciyim təzə geymiş buxara, / İnsafdımı, bülbül baxa bu xara" [2, s. 117] deyərək sevdiyinin gözəlliyini qısqanclıqla təsvir edir. Özünü isə nə axund, nə molla, nə cami olaraq ifadə edir:

Allahverdi pirdən içdi nə camı,
Nə axunddu, nə molladı, nə cami,
Nə Firdovsi, nə Hafizi, nə Cami,
Təcnis, sinədəftər, ayə məndədi [2, s. 117].

Bu misralar ilə aşıq özünün sinədəftər olduğunu, maraqlı şeirlər söylədiyini vurğulamışdır. Aşığın deyişmələri də günümüzə gəlib çatmışdır. Bu deyişmələrdən biri şagirdi Aşıq Alı ilə olmuşdur. Bacısı Ümmülbanu və Keşişoğlu ilə deyişmələri də xalq arasında məşhurdur. Bu deyişmələrdə aşıq sözünün nə qədər qüdrətli olduğunu sübut etmişdir.

**Nəticə.** Kosacanlı Ağ Aşıq Allahverdi yaradıcılığı ilə aşıqlıq ənənəsində əhəmiyyətli mövqe tutur. Məqalədə aşığın həyatı və yaradıcılığı haqqında məlumatlara toxunulmuşdur. Aşığın harada anadan olması ilə bağlı söylənilən müxtəlif məlumatlar araşdırılmışdır.

Araşdırmada aşığın həyatı ilə yanaşı, yaradıcılığının janr xüsusiyyətləri tədqiq olunmuşdur. Aşıq həm dastan yaradaraq, həm də müxtəlif şeirləri ilə ustad aşıq olaraq tanınmışdır. O aşıqlıq ənənəsini atasından öyrənmiş, özü də öyrəndiyi məlumatları ustad aşıq olaraq öyrətmişdir. Şeirlərində həyatı dəyərləri əks etdirən aşığın yaradıcılığı aşıq ənənəsinin araşdırılması və öyrənilməsi üçün vacib mənbə rolunu oynayır.

## ƏDƏBİYYAT

1. Allahmanlı M., Qasımlı M. İzahlı aşıq ədəbiyyatı sözlüyü. Bakı, 2019, 224 s.
2. Azərbaycan Aşıqlar birliyi – Qərbi Azərbaycan aşıqları: Poeziya antologiyası. Bakı: Zərdabi nəşr, 2023, 512 s.
3. Qədimov Ə. XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları. Naxçıvan: Əcəmi, 2017, 408 s.
4. Səfərov Y. Naxçıvan aşıq ədəbi mühiti. Naxçıvan, 2009, 134 s
5. Səfərov Y. Naxçıvan aşıqları və el şairləri. Naxçıvan: Əcəmi, 2011, 152 s.
6. Vahid T. Ağ Aşığın bəyaz dünyası / https://medeniyyet.az/page/news/21414/Ag-Asigin-beyaz-dunyasi.html?lang=az

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aytekinimanova14@gmail.com***

**Aytakin Zeynalova**

## NAKHCHIVAN ASHUG MILIEU: AG ASHUG KOSAJANLI

Ashug literature is one of the literary genres that reflects and preserves the national values of the people, aiding in their transmission to the future generation. Ashugs perform various dastans and wedding songs at wedding ceremonies in which they participate. These performances pass on the traditions of the people to future generations. Thanks to the tireless efforts of the ashugs, we are afforded the opportunity to acquire knowledge regarding the customs and traditions of previous eras. In this regard, the ashugs are considered the most important figures of folk literature. A promi-

nent representative of the Nakhchivan ashug tradition, Ag Ashug Allahverdi, was also a signifycant contributor to the development of the tradition. Allahverdi's work expressed the human qualities of love, the torments of love, longing for the homeland, the beauty of the homeland, and the difficulties of life in exile.

The article discusses his epic poem, "Ag Ashug and Susanbar" as well as the poetic work of the ashug. It includes information about the life of the ashug.

**Keywords:** *White Ashug Allahverdi, Nakhchivan ashugs, dastan, ashug creativity, tradition, national values, folk literature.*

**Айтекин Зейналова**

## АШУГСКАЯ СРЕДА НАХЧЫВАНА: АК АШУГ КОСАДЖАНЛЫ

Ашугская литература – один из литературных жанров, который отражает и хранит национальные ценности народа, помогая донести их до будущих поколений. Ашуги исполняют различные дастаны и свадебные песни на свадебных церемониях, в которых они принимают участие. Эти представления передают традиции народа будущим поколениям. Именно благодаря творчеству ашугов мы имеем возможность получать информацию об обычаях и традициях прошлых эпох. В этом отношении ашуги считаются важнейшими фигурами народной литературы. Видный представитель нахчыванской ашугской традиции Ак Ашуг Аллахверди также является одним из ашугов, внесших неоценимый вклад в развитие традиции. В своем творчестве Аллахверди выражал человеческие качества, гимн любви, муки любви, тоску по родине, красоты родины и трудности жизни в изгнании.

В статье анализируется его эпическая поэма «Ак Ашуг и Сюсенбер», а также поэтическое творчество ашуга. В том числе приводятся сведения о жизни ашуга.

**Ключевые слова:** *Ак Ашуг Аллахверди, нахчыванские ашуги, дастан, ашугское творчество, тради-ция, национальные ценности, народная литература.*

(*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir*)

**Daxilolma tarixi: İlkin variant 25.02.2025**
**Son variant 02.04.2025**